Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

10 DEKABR 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI № 272 (8030) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

Zəfər paradı:

Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı yerinə yetirdi

***O** tuz ildən sonra qürurla, qətiyyətlə səslənən bu tarixi sözlər Qələbə, Zəfər simfoniyasını əks etdirir, tariximizin ən şərəfli səhifəsinə bələdçilik edir. Böyük güclərin diktəsi ilə Azərbaycan ərazisində heç bir mənəvi, siyasi və hüquqi əsası olmadan yaradılan qondarma rejim böyük Qələbə nəticəsində tarixin zibilliyinə atıldı. Bu gün siyasi iradənin, milli birliyin, güclü ordunun nəticəsində Azərbaycan bayrağı Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə dalğalanır. Yaxşı bilirik ki, Qələbəyə gedən yol asan olmayıb, uzun illər təcavüzkarı müdafiə edənlərin haqsızlığı, münaqişəni dondurmaq cəhdləri, ermənipərəstlik, ikiüzlü siyasət, riyakarlıq, biganə yanaşma qətiyyətlə, yüksək siyasi bacarıqla dəf edildi. Sözü ilə əməli düz gəlməyən, Azərbaycanı gözü götürməyən, onun uğurlarını həzm edə bilməyən siyasi oyunçuları yerində oturdan, demək olar ki, yenidən qurulan, müasir silahlarla təchiz edilən, döyüş qabiliyyətini və peşəkarlığını artıran Silahlı Qüvvələrimizin Qalib Ali Baş Komandanı İlham Əliyev düşmənin hərbi təcavüzünün qarşısının alınması, əhalinin təhlükəsizliyi üçün tarixi məqamda düşünülmüş, qətiyyətli və həm də çox güclü bir addım atdı.*

Liderimizin rəhbərliyi ilə mükəmməl hərbi kadr potensialının formalaşması, müasir hərbi silahlanma orduda ciddi nizam-intizam, zabit və əsgərlərimizin həm psixoloji, həm də döyüş hazırlığının yüksək səviyyədə olması şanlı Zəfəri xalqımıza yaşatdı. Qırx dörd günlük müharibənin hər anı, hər dəqiqəsi bizim gücümüzü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini göstərdi. Biz bir yumruq kimi birləşdik, ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi, yağıları torpağımızdan qovdu. Vətənin bütövlüyü uğrunda, torpaqlarımızın işğalçılardan azad edilməsi üçün həyatını qurban verən, canını fəda edən şəhidlər xalqımızın qürur mənbəyidir. Hər bir şəhidin xatirəsi onların yaxınlarının və bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayır. Şəhidlər xalqımızın ləyaqətini bərpa etdilər, otuz il işğal altında qalan torpaqları azad edərək millətimizin mənəvi əzabına son qoydular. Şəhidlərin adı əbədi qalır, onların qəhrəmanlığı gələcək nəsillər üçün əsl örnəkdir.

(davamı 4-cü səhifədə)

(əvvəli 1-ci səhifədə)

Ermənilərin qanlı və kirli caynaqlarının izi Qarabağ və Şərqi Zəngəzurda, xüsusilə Ağdamda daha amansız şəkildə özünü göstərir. Xain düşmən Qarabağın muğam beşiyi, ziyalılar yurdu, qəhrəman oğulları ilə öyünən Ağdamı, gözəl və yaraşıqlı şəhəri bünövrəsinə qədər söküb, bu qədim şəhərin xarabalıqları görənləri dəhşətə gətirir, uçuq divarların lal görkəmi ürək dağlayır, ermənilərin nə qədər vəhşi bir toplum olduğundan xəbər verir. Bir güllə atılmadan erməni işğalından azad edilən Ağdama bir neçə dəfə səfər etmişəm və hər dəfə də şəhərin dağıntıları arasında R.Gözəlov küçəsindəki evimizi axtarsam da, tapa bilməmişəm, abad və səliqəli küçəmizi kol-kos basıb, xatirələrimizin beşiyini düşmən qəsdən və bilərəkdən, qatı nifrət ruhunda dağıdıb. Doğulub boya-başa çatdığım Əliağalı kəndində isə məni varlığımı sarsıdan, qəlbimə köz kimi basılan dəhşətli bir mənzərə, düşmən tərəfindən viran edilmiş ata evimin qaralmış qalıqları qarşıladı. İkimərtəbəli evimizin daşıdaş üstündə qalmayıb, həyətimizdəki meyvə ağaclarını doğrayan erməni faşistləri buradakı uşaqlıq xatirələrimin izini siliblər, üstündə imək lədiyim torpağın bağrına dağ basıblar, burada zərrə qədər həyat işartısı yoxdur. Sinəmdə boğulan hıçqırıqların göynərtisinə, səssiz axan göz yaşlarıma, ürəyimi titrədən həyəcana, evimizin yaralanmış daşlarına toxunan əllərimin titrəyişinə mətin addımlarla mənə tərəf yaxınlaşan Azərbaycan əsgərinin gülümsər çöhrəsi, gözlərindəki inam elə bil sığal çəkdi, kədərli hissləri qalib əsgərimizin doğmalıqla mənə toxdaqlıq verməsi əvəz etdi.

Bu dediklərimi söz xatirinə yada salmadım, qalib əsgərimiz düşmənin qadınına, uşağına güllə atmayıb, əksinə ən çətin məqamlarda onları qoruyub, yaralı düşmənə kömək göstərib, mərhəmətini əsirgəməyib, silahlı düşməni isə yerindəcə məhv edib, gülləsi qurtaranda qaniçən hayları dişləri ilə parçalayıb. Döyüşdə yaralanan yoldaşını atıb getməyib, onu kürəyinə alaraq qayalara dırmaşıb, sıldırım yarğanlardan keçib, düşmən səngərindəkiləri gəbərdərək irəliyə can atıb. Bu igidlər Azərbaycan əsgərləridir, müzəffər ordumuzun qəhrəman zabitləridir, əsgəri ilə çiyin-çiyinə döyüşən generallardır. Uzun illər ərzində dünyaya sırınan məğlubedilməz erməni mifini darmadağın edən, torpaqların azadlığı uğrunda sinəsini sipərə çevirən xüsusi təyinatlılar döyüşlərin bütün ağırlığını öz üzərlərinə götürərək irəliyə addımlayıblar, düşmənin bombardumanında tərəddüd etməyiblər, göydə qarğa-quzğun kimi süzən mərmilərlə savaşıblar.

Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunan Vətən müharibəsində qazanılan Qələbənin və Zəfərin qiyməti çox böyükdür, zamana və yaddaşa sığmır. Misli görünməyən, dünyanı heyrətə salan, düşmənlərimizə göz dağı olan parlaq Qələbə şəhidlərimizin qanı ilə daha da müqəddəsləşib. Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin yüksək peşəkarlığını, döyüş qabiliyyətini, qəhrəmanlığını, torpaq və bayraq məhəbbətini bütün dünyaya nümayiş etdirdi. Bu savaşda əsgərlərimiz, zabitlərimiz, generallarımız doğma Vətənimiz Azərbaycanın başını uca etdilər, Prezident, Qalib Ali Baş Komandan İlham Əliyevin əmr və göstərişlərini ləyaqətlə yerinə yetirərək düşmən ordusunu darmadağın etdilər, işğalçıların tör-töküntülərini torpaqlarımızdan qovdular. Yüksək ləyaqətlə döyüşdülər, dinc ermənilərə güllə atmadılar, erməni qadın və uşaqlarına əl qaldırmadılar, yalnız döyüş meydanında hünər göstərdilər. İgidlərimizin döyüş məharəti sayəsində Vətən müharibəsinin ilk günlərindən Ermənistan ordusu, şəxsi heyəti dərin mənəvi-psixoloji sarsıntı keçirdi. Azərbaycanın ordu bölmələrinin gücü və qüdrəti onların gözünü qorxutmuşdu. Bundan əvvəl isə 2016-cı ilin Aprel döyüşlərində erməni əsgəri və zabitlərinə sarsıdıcı zərbələr vuruldu.

Şanlı qələbə ilə başa çatan Vətən müharibəsində ən ağır döyüş tapşırıqlarını, xüsusi əməliyyatları, düşmənin gözləmədiyi istiqamətdən həmlə zərbələrini Silahlı Qüvvələrimizin xüsusi təyinatlıları həyata keçirib. Otuz ilə yaxın işğal etdikləri torpaqlarda çox güclü istehkamlar və müdafiə xətləri quran Ermənistan ordusuna sarsıdıcı zərbələrlə həmin maneələri dağıdan, düşməni döyüş meydanında məhv edən, keçilməz sədləri, sıldırım qayaları aşan Vətənin qəhrəman oğulları Azərbaycan ordusunun peşəkarlığını, hünərini və hərbi gücünü bütün dünyaya göstərdi. Vətən müharibəsi ilə bağlı təhlillər bir daha göstərir ki, döyüşlərdə taktiki qələbələrin bir çoxu xüsusi təyinatlı qüvvələrin yerdəki mövqelərindən hədəf koordinatları təmin edən, Şuşa şəhərinə girən və Ermənistan ordusunu şəhərin mərkəzindən sıxışdıran diversant qrupları sayəsində əldə edilib. Bu müharibədə Azərbaycanda ilk dəfə olaraq bütün xüsusi təyinatlı birləşmələri aktiv şəkildə iştirak edib. Əcnəbi hərbi mütəxəssislərin gəldiyi qənaət belədir ki, ilk növbədə, vahid komandanlığın olması, Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və apardığı uğurlu ordu quruculuğu siyasəti Vətən müharibəsində qələbənin əsasını təşkil edib. Mənsub olduğu xalqın, gəncliyin gücünü, ləyaqətini, qabiliyyətini, qəhrəmanlığını varlığında yaşadan, doğma yurdu, torpağı uğrunda savaşa atılan, düşməni əzən və məhv edən oğullarla fəxr edirik, polad biləkli igidlərlə həmişə qürur duyuruq.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı 44 günlük şanlı Vətən müharibəsində qazanılan Qələbə sevincinin və qürurun parlaq göstəricisi oldu, Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi. Fədakar övladlarının qəhrəmanlığını yüksək qiymətləndirən xalqımız möhtəşəm Zəfər paradını qürurla keçirdi. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda keçirilmiş möhtəşəm Zəfər paradında düşməndən qənimət olaraq götürülmüş silah-sursat və texnika ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız nümayiş etdirildi. Zəfər paradı həm yerdə, həm də göydə kəhkəşan yaratdı, əsgər və zabitlərimizin mətin addımları düşməni bir daha titrətdi, separatçıların gözünü qorxutdu.

Zəfər paradı niyə məhz dekabrın 10-da keçirildi, həmin gün hansı mənanı daşıyırdı? Qeyd edək ki, 10 dekabr 1991-ci ildə Dağlıq Qarabağda elan edilmiş, qondarma separatçı rejim üçün simvolik önəm daşıyırdı. Belə ki, həmin gün keçmiş Dağlıq Qarabağda qondarma respublikanın müstəqilliyinə dair referendum keçirilib. Dağlıq Qarabağın azərbaycanlı əhalisinin iştirak etmədiyi referendumda ermənilər müstəqilliyə "səs veriblər". 2023-cü ildə keçirilən antiterror tədbirlərindən sonra isə tarixin arxivinə göndərilmiş separatçı rejimin "qəhrəmanları" indi Bakıdakı təcridxanada istintaq orqanları qarşısında cavab verirlər. Azərbaycan dünya ermənilərinin hər il xüsusi təmtəraqla qeyd etdiyi 10 dekabr tarixində Zəfər paradı keçirməklə həm Ermənistana, həm də himayədarlarına mesaj vermiş oldu - Qarabağ Azərbaycandır və bu, həmişə belə qalacaq! Zəfər paradı zamanı meydandan 3000 nəfərdən çox şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin keçidi olub. Həmçinin Vətən müharibəsi zamanı düşməndən ələ keçirilən hərbi qənimətlərin bir qismi də nümayiş etdirilib. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paraddakı çıxışında deyib: "Bu gün tarixi gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir. Mən çox şadam ki, bu paradda mənim dəvətimi qəbul edərək Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak edir. Eyni zamanda Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirlər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızı göstərir".

Ötən dörd ildə hərbi sahədə islahatlar aparılıb, Ordumuz qüdrətini daha da artırıb. Eyni zamanda yeni hərbi texnikalar alınıb, hərbi hissələrin açılışı olub. Genişmiqyaslı Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib. Qalib Ali Baş Komandan Zəfər paradındakı çıxışında bildirib: "Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı orada qaldırıldı. Bu, onu göstərir ki, biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq. Halbuki bir çoxları, xüsusilə bu məsələ ilə məşğul olan vasitəçilər dəfələrlə demişdilər ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var. Əks-təqdirdə, bu nə hərb, nə sülh vəziyyəti bundan sonra da 30 il davam edə bilərdi. Biz buna nə qədər dözə bilərdik? Biz nə qədər səbir göstərə bilərdik? Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqının səbri tükənib və əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz onları oradan qovacağıq, onlar rədd olmalıdırlar bizim torpaqlarımızdan!".

Təntənəli hərbi paradda Vətən müharibəsində döyüşlərdə əsl şücaət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza böyük Qələbə sevinci yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin və digər qoşun birləşmələrinin, Hərbi Dəniz Qüvvələrinin, Xarici Kəşfiyyat Xidmətinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Əlahiddə Ümumqoşun Ordunun, Raket və Artilleriya Qoşunlarının, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularının tribuna önündən mətin addımlarla keçidi Azərbaycanın hərbi qüdrətinin, qəhrəman əsgər və zabitlərimizin vətənpərvərliyinin, rəşadətinin və Qələbə əzminin ifadəsi idi. Zəfər paradında Heydər Əliyev adına Hərbi İnstitutun, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları Azadlıq meydanında keçirilən paradda ilk dəfə iştirak etdilər. Paradda qardaş Türkiyə Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların keçidi isə Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu göstərdi. İkinci Qarabağ müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına dənizdən dəstək verən Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri yüksək döyüş hazırlığı nümayiş etdirdi. Paradın qürurverici anlarından biri də Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qisminin gətirilməsi oldu. Xüsusilə Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı iki mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan və üzərinə "Qarabağ Azərbaycandır!" şüarının həkk olunduğu kompozisiyanın nümayişi hər bir azərbaycanlıya sonsuz qürur yaşatdı.

Bizə qələbə sevinci yaşadan, yurd nisgilimizə son qoyan oğullarımıza eşq olsun, şəhidlərimizə uca Yaradandan rəhmət diləyirik, qazilərimizlə fəxr edirik. Zəfər paradı keçirilən gün xalqımızın ulu öndəri Heydər Əliyevin ruhu şad oldu, Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavadın ruhu dinclik tapdı. Həmin gün Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhu şad oldu. Zəfər paradı bütün türk dünyası üçün qələbə və qürur günüdür. Həlledici qələbədən sonra işğaldan azad edilən ərazilərdə mühüm mərhələ başlayıb. İndi Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq sürətlə davam edir, gücün, xoş niyyətin və iradənin təntənəsi yaşanır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərdə aparılan tikinti, bərpa və yenidənqurmanın miqyası çox genişdir. Böyük Qayıdış başlayıb, Laçın, Füzuli, Şuşa, Cəbrayıl şəhərlərinə köç karvanları davam edir. Zaman Azərbaycanın xeyrinə işləyir, xalqımız möhtərəm Prezident İlham Əliyevin fədakar fəaliyyətini yüksək qiymətləndirir, birmənalı şəkildə müdafiə edir, Liderimizin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır.

Salman ALIOĞLU,
"Respublika".